

# AZƏRBAYCAN!

**İntiqam Hüseynov**

İşğaldan azad oldu torpağımız.
Ucalıqca - ucaldı bayrağımız.
Qələbə Zəfərin çaldı xalqımız,
Sülhə müjdə gətirdi, Azərbaycan!

İslandı göy otlar, yuyundu meşə,
Hər yan gözəlləşdi, bənzərsiz guşə.
Laləzar tək, hər yan olub güleyşə,
Qarabağım azaddır, Azərbaycan !

Dağları alovlu, yanar bir ocaq,
Məşəl olub, tüstüsü qalaq - qalaq.
Viran könlüm buz şaxtadan sazaq,
Şəhidlərim ölməzdir, Azərbaycan!

Xoş avazım, Xarıbülbül oxuyur,
Sarı bülbül gül çələngin toxuyur.
Köklü ağac ürəyimə toxunur,
Haqq - ədalət sənindir, Azərbaycan

Türküstan.- 2020.- 22-28 dekabr. S. 21.